Azərbaycan dili və ədəbiyyat tədrisi
2026 / Cild 72, Nömrə 3 / 32–45
https://doi.org/10.48445/k8521-9122-4055-e

Azərbaycan dilinin beynəlxalq tədrisinin məqsədi və vəzifələri: Pekin Xarici Dillər Universitetində Azərbaycan dili ixtisasinin təşkili və tədrisi üzrə nümunəvi tədqiqat

Aqşin Əliyev [1]

XÜLASƏ

Məqalədə "Azərbaycan dilinin beynəlxalq tədrisi" anlayışı məzmun cəhətdən araşdırılır, elmi dövriyyəyə daxil edilərək və indiyədək istifadə olunmuş əlaqəli anlayışlarla müqayisə olunur. Tədqiqat çərçivəsində Azərbaycan dilinin xaricdə tədrisinin üç əsas formatı təhlil olunur, bu sahənin nəzəri və praktik problemləri araşdırılır. Eyni zamanda, Azərbaycan dilinin beynəlxalq tədrisinin səmərəli təşkili üçün fərqli metodoloji yanaşmaların tətbiqinin, dərslik və lüğətlərin məqsədyönlü hazırlanmasının əhəmiyyəti əsaslandırılır. Məqalədə rəqəmsallaşma şəraitində Azərbaycan dilinin beynəlxalq tədrisinin mövcud vəziyyəti qiymətləndirilir, bu istiqamətdə həyata keçirilməsi zəruri olan tədbirlər müəyyənləşdirilir. Dünya təcrübəsi əsasında dil tədrisinin xaricdə mərkəzləşdirilmiş şəkildə təşkili məsələləri, müəllim hazırlığının rolu və "Azərbaycan dilinin beynəlxalq tədrisi" üzrə müvafiq ixtisasların yaradılmasının zəruriliyi nəzərdən keçirilir. Bununla yanaşı, Pekin Xarici Dillər Universitetində Azərbaycan dilinin ixtisas səviyyəsində tədrisi təcrübəsi təqdim edilir və əldə olunmuş nəticələr ümumiləşdirilir.

AÇAR SÖZLƏR

Azərbaycan dili, xarici dil, beynəlxalq tədris, Pekin Xarici Dillər Universiteti

MƏQALƏ TARİXÇƏSİ

Göndərilib: 17.05.2026
Qəbul edilib: 24.08.2026

[1]Çin filologiyası üzrə fəlsəfə doktoru, Pekin Xarici Dillər Universiteti. Çin
https://orcid.org/0009-0008-8791-5321 | agshinaliyev@bfsu.edu.cn

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Teaching of Azerbaijani Language and Literature
2026 / Volume 72, Number 3 / 32–45
https://doi.org/10.48445/k8521-9122-4055-e

Objectives and Tasks of International Azerbaijani Language Teaching: The Case Study of Organization and Teaching the Azerbaijani Language Degree Program at Beijing Foreign Studies University

Agshin Aliyev [1]

ABSTRACT

This article introduces the concept of International Azerbaijani Language Teaching into academic discourse, defines its scope and content, and distinguishes it from related terms that have been used previously. Within the framework of the study, three principal models of teaching the Azerbaijani language abroad are analyzed, and the theoretical and practical challenges associated with this field are examined. Furthermore, the study substantiates the importance of employing diverse methodological approaches, as well as the targeted development of textbooks and dictionaries, for the effective organization of international Azerbaijani language teaching. The article also evaluates the current state of international Azerbaijani language teaching in the context of digitalization and identifies the measures necessary for its further development. Drawing upon international experience, it discusses the significance of the centralized organization of language teaching abroad, the crucial role of teacher training and talent development, and the necessity of establishing a specialized major dedicated to International Azerbaijani Language Teaching. In addition, the article presents the experience of teaching Azerbaijani as a degree program at Beijing Foreign Studies University and summarizes the outcomes and achievements attained in this regard.

KEYWORDS

Azerbaijani language, foreign language, international education, Beijing Foreign Studies University

ARTICLE HISTORY

Received: 17.05.2026
Accepted: 24.08.2026

[1]PhD in Chinese Philology, Beijing Foreign Studies University. China
https://orcid.org/0009-0008-8791-5321 | agshinaliyev@bfsu.edu.cn

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Giriş

Dil insanlar arasında ünsiyyət vasitəsi olduğu kimi sivilizasiyalararası dialoqda da mühüm rol oynamaq gücündədir. “Azərbaycan dilinin beynəlxalq tədrisi” termini məqalə müəllifi tərəfindən 2021-ci ildə adıgedən mövzuda silsilə mühazirələr zamanı istifadə olunmuşdur. Məqalədə bu terminin tərifi, eləcə də müasir dövrdə Azərbaycan dilinin beynəlxalq tədrisinin məqsəd və vəzifələri, bu vəzifələri həyata keçirmək üçün institusional və akademik mühitin meyarları analiz olunmuşdur.

Dövri və akademik mətbuatda tez-tez “əcnəbilərə Azərbaycan dilinin tədrisi” terminə rast gəlinir. Bu sahə ilə bağlı çoxsaylı dərslik və dərs vəsaitləri də nəşr edilir. Buna baxmayaraq, hesab edirik ki, bu termin daha məhdud çərçivəni əhatə edir və iki mühüm səbəbə görə onun “Azərbaycan dilinin beynəlxalq tədrisi” termini ilə əvəz olunması daha məqsədəuyğundur. İlk növbədə, Azərbaycan dili həm ölkə daxilində, həm də xaricdə yalnız əcnəbilərə deyil, eyni zamanda etnik mənsubiyyət etibarilə azərbaycanlı olan xarici ölkə vətəndaşlarına da tədris olunur. Belə şəxslər etnik baxımdan azərbaycanlı olsalar da, xarici ölkələrdə doğulub böyüdükləri, təhsil aldıqları və yerli dil mühitində formalaşdıqları üçün Azərbaycan dilini ya ümumiyyətlə bilmir, ya da çox aşağı səviyyədə mənimsəyirlər. Bu baxımdan, həmin şəxslər haqqında “əcnəbi” terminin işlədilməsi həm elmi, həm də etik baxımdan uyğun hesab edilmir. İkincisi, “Azərbaycan dilinin beynəlxalq tədrisi” termini daha geniş məzmun və əhatə dairəsinə malik olmaqla yanaşı, akademik ciddiyyətini də qoruyub saxlayır. Bu termin tədris prosesinin məqsəd və mahiyyətini daha aydın şəkildə ifadə edir, eyni zamanda beynəlxalq elmi və pedaqoji diskursda istifadə baxımından daha uyğun və funksional rola malikdir.

Beləliklə Azərbaycan dilinin beynəlxalq tədrisi dedikdə, bu fənnin ana dili Azərbaycan dili olmayan şəxslərə xarici və ya ikinci dil kimi sistemli şəkildə öyrədilməsi, eləcə də bu prosesin nəzəri, metodoloji, institusional və praktik əsaslarının tədqiqi nəzərdə tutulur.

Yuxarıda qeyd edildiyi kimi, Azərbaycan dilini öyrənən qeyri-Azərbaycan vətəndaşlarını iki qrupa ayırmaq olar: əcnəbilər və etnik mənsubiyyəti azərbaycanlı olan xarici ölkə vətəndaşları. Hər iki qrupa daxil olan şəxslərə Azərbaycan dilinin tədrisi məhz “Azərbaycan dilinin beynəlxalq tədrisi metodları” vasitəsilə həyata keçirilməlidir. Beləliklə, məqalədə aşağıdakı suallara cavab verməyə çalışacağıq.

- Azərbaycan dilinin beynəlxalq tədrisinin metodları ilə ölkəmizin şagird və tələbələrinə tətbiq olunan yanaşma və metodlar arasında hansı fərqlər var?
- Azərbaycan dilinin beynəlxalq tədrisinin əsas məqsəd və vəzifələri hansılardır?
- Pekin Xarici Dillər Universitetində Azərbaycan dilinin ixtisas səviyyəsində tədrisi necə təşkil olunmuşdur?
- Azərbaycan dilinin beynəlxalq tədrisinin gələcək perspektivləri və inkişafı necə görünür?

Metodlar

Tədqiqatın həyata keçirilməsi prosesində müqayisəli təhlil, eləcə də müəllifin uzunmüddətli pedaqoji və təşkilati fəaliyyətindən irəli gələn praktik təcrübə metodlarından istifadə edilmişdir. Araşdırma çərçivəsində müxtəlif ölkələrdə xarici dillərin tədrisi sahəsində formalaşmış nəzəri yanaşmalar, metodik modellər və tədris təcrübələri sistemli şəkildə təhlil olunmuş, onların tətbiq effektivliyi qiymətləndirilmişdir. Xüsusilə, ikinci və xarici dilin tədrisi üzrə beynəlxalq elmi ədəbiyyatın müqayisəli araşdırılması əsasında müxtəlif metodoloji konsepsiyaların üstün və zəif tərəfləri müəyyənləşdirilmişdir.

Bununla yanaşı, əldə edilmiş nəzəri nəticələr Azərbaycan dilinin beynəlxalq tədrisinin mövcud vəziyyəti ilə əlaqələndirilmiş, dünya təcrübəsində uğurla tətbiq olunan yanaşmaların Azərbaycan dilinin xarici auditoriyaya tədrisi prosesinə uyğunlaşdırılması imkanları qiymətləndirilmişdir. Tədqiqat zamanı nəzəri ümumiləşdirmə, müqayisəli təhlil, təcrübənin sistemləşdirilməsi və praktik müşahidə metodlarından istifadə edilmiş, bu əsasda Azərbaycan dilinin beynəlxalq tədrisinin inkişaf perspektivləri, metodoloji ehtiyacları və institusional istiqamətləri müəyyənləşdirilmişdir. Xüsusi diqqət xarici dil tədrisi nəzəriyyələrinin Azərbaycan dilinin beynəlxalq müstəvidə tədrisinə verə biləcəyi elmi, metodiki və praktik töhfələrin müəyyənləşdirilməsinə yönəldilmişdir.

Nəticələr

Bir dilin əcnəbilərə tədrisi yalnız dil bacarıqlarının ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda həmin xalqın mədəniyyətinin, dəyərlərinin və dünyagörüşünün beynəlxalq müstəvidə tanıdılması və yayılması funksiyasını da yerinə yetirir. Bu baxımdan, xarici auditoriyaya dil tədrisi mədəni diplomatiyanın və mədəni ixracın mühüm alətlərindən biri kimi çıxış edir. Belə bir fəaliyyətin səmərəli şəkildə həyata keçirilməsi xüsusi elmi tədqiqatların aparılmasını, məqsədyönlü metodoloji yanaşmaların hazırlanmasını, eləcə də bu sahə üzrə ixtisaslaşmış mütəxəssis və müəllim kadrlarının yetişdirilməsini zəruri edir.

Müzakirə

Qeyd etdiyimiz kimi, Azərbaycan dilinin beynəlxalq tədrisi yalnız elmi deyil, eyni zamanda milli əhəmiyyət daşıyan bir məsələdir. Dil, ilk növbədə, ölkənin əsas identifikasiya vasitələrindən biri və onun beynəlxalq imicinin formalaşmasında mühüm töhfə verən strateji amildir.

Xarici vətəndaşların Azərbaycan dilini öyrənməsi onların ölkəmiz haqqında təsəvvürlərini üçüncü dillərin vasitəçiliyi ilə deyil, birbaşa Azərbaycan dili üzərindən formalaşdırmasına imkan yaradır. Bu isə ölkə haqqında xaricdə yayıla biləcək qeyri-obyektiv və təhrif olunmuş məlumatların qarşısının alınmasına xidmət edir. Bundan əlavə,

Azərbaycan dilini öyrənən əcnəbilər ölkələr və xalqlar arasında mədəni körpü funksiyasını yerinə yetirərək xalq diplomatiyasının inkişafına mühüm töhfə verə bilərlər. M. Byramın fikrincə, mədəniyyətlərarası ünsiyyət bacarığı müxtəlif mədəniyyətlərdən olan insanlarla səmərəli və uyğun şəkildə əlaqə qurmaq bacarığını ifadə edir (Byram, 1997). Təcrübə göstərir ki, Azərbaycan dilini və mədəniyyətini dərindən mənimsəmiş xarici vətəndaşlar iki ölkə arasında qarşılıqlı anlaşmanın, mədəni əməkdaşlığın və humanitar əlaqələrin inkişafında aktiv rol oynayırlar. Azərbaycan dilinin beynəlxalq tədrisinin əsas məqsədlərindən biri Azərbaycan mədəniyyətini, cəmiyyətini və sosial reallıqlarını dərindən mənimsəmiş azərbaycandilli xarici kadrların hazırlanmasıdır. Beynəlxalq təcrübə göstərir ki, bir sıra ölkələrin, o cümlədən Çin, Rusiya, Türkiyə, Almaniya kimi dövlətlərin, xarici iqtisadi və ticarət əlaqələrinin inkişafında vaxtilə həmin ölkələrdə təhsil almış əcnəbi məzunlar mühüm rol oynamışdır. Bu şəxslər dil və mədəniyyət bilikləri sayəsində ölkələr arasında iqtisadi, akademik və humanitar əməkdaşlığın genişlənməsinə töhfə vermişlər. Azərbaycanda da bu istiqamətdə müəyyən təcrübə mövcuddur, lakin hələlik arzulanan nəticə əldə olunmamışdır. Bu baxımdan, Azərbaycan dilinin beynəlxalq tədrisinin əsas prioritetlərindən biri gələcəkdə ölkənin iqtisadi, mədəni və beynəlxalq əlaqələrinin inkişafına töhfə verə biləcək peşəkar xarici mütəxəssislərin hazırlanması olmalıdır.

Hazırda xaricdə Azərbaycan dili əsasən üç formada tədris olunur. Birinci istiqamət etnik mənsubiyyəti azərbaycanlı olan şəxslər üçün təşkil edilən dil kurslarını əhatə edir. Bu kurslar əsasən Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən yaradılmış Azərbaycan evlərində fəaliyyət göstərir və diaspor nümayəndələrinin ana dili ilə əlaqələrinin qorunmasına xidmət edir.

İkinci forma müxtəlif xarici universitetlərdə Azərbaycan dilinin üçüncü dil və ya seçmə fənn kimi tədris edilməsidir. Bu model çərçivəsində Azərbaycan dili əcnəbilərə xarici dil kimi təqdim olunur və əsasən dil bacarıqlarının formalaşdırılması ilə yanaşı, Azərbaycan tarixi və mədəniyyəti haqqında ilkin biliklərin verilməsini də nəzərdə tutur.

Üçüncü forma isə Azərbaycan dilinin xarici vətəndaşlar üçün müstəqil və ya yarımmüstəqil ixtisas proqramı kimi tədris olunmasıdır. Bu model daha sistemli və peşəkar dil hazırlığını əhatə etsə də, hazırda yalnız məhdud sayda universitetdə tətbiq olunur. Bununla belə, məhz bu istiqamət gələcəkdə azərbaycanşünaslıq, tərcümə, diplomatiya, beynəlxalq münasibətlər və iqtisadi əməkdaşlıq sahələri üçün ixtisaslaşmış xarici kadrların hazırlanması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan dilinin beynəlxalq aləmdə tədrisini uğurlu və səmərəli həyata keçirmək üçün aşağıdakı bir neçə amil mühüm əhəmiyyət daşıyır.

1. “Azərbaycan dilinin tədrisi” və “Azərbaycan dilinin beynəlxalq tədrisi” fərqli terminlər olduğu üçün bu anlayışlardan irəli gələn məsələlərin həyata keçirilməsi də fərqli metodoloji yanaşmalar tələb edir. Başqa sözlə desək, doğma dili Azərbaycan dili olanlara və əcnəbilərə bu fənn fərqli metodlar və yanaşmalarla tədris olunmalıdır. Bu da öz növbəsində,

əcnəbilərə Azərbaycan dilinin tədrisi metodları üzrə tədqiqatların aparılmasını tələb edir. Aparılan müşahidələr göstərir ki, ölkəmizdə bu sahə üzrə metodları təkmilləşmədiyindən və ya ümumiyyətlə işlənmədiyindən bəzən əcnəbilərə sanki azərbaycanlıya dərs keçirmiş kimi dil öyrədilir. Bu da öz növbəsində müxtəlif problemlərə gətirib çıxarır. Tələbə Azərbaycan dilini öyrənməkdən imtina edir və tədris dilini rus dilinə dəyişir və s. Odur ki, Azərbaycan dilinin beynəlxalq tədrisinin uğurla həyata keçirilməsi məqsədilə xüsusi metodologiyanın hazırlanması və müvafiq tədris mexanizmlərinin müəyyənləşdirilməsi zəruridir. Başqa sözlə, Azərbaycan dilinin ikinci dil kimi tədris metodları hazırlanmalı və nəzərə alınmalıdır ki, qarşı tərəf bu dili əsas dil kimi yox, ikinci dil kimi öyrənir. Bu məqsədlə aidiyyəti universitet və elmi-tədqiqat institutlarında Azərbaycan dilinin beynəlxalq tədrisi üzrə ixtisaslaşmış tədqiqat mərkəzlərinin yaradılmasına ehtiyac vardır. Belə bir tədqiqat mərkəzinin əsas funksiyaları Azərbaycan dilinin beynəlxalq tədrisinin müstəqil bir elmi-tədqiqat sahəsi kimi nəzəri əsaslarının formalaşdırılması və araşdırılması; fonetik, qrammatik, leksik, audiovizual və oxu tədrisi üzrə metod və standartların müəyyən edilməsi; dərsliklərin və digər tədris resurslarının hazırlanması; müxtəlif ölkələrin dilləri, dil siyasətləri və mədəniyyətləri üzrə araşdırmalar aparılaraq tədris vəsaitlərinin və metodlarının həmin xüsusiyyətlərə uyğunlaşdırılması; Azərbaycan dilinin beynəlxalq tədrisinin müstəqil ixtisas sahəsi kimi institusional inkişafının vacibliyinin elmi cəhətdən əsaslandırılması; qısamüddətli, uzunmüddətli və ixtisas səviyyəli tədris proqramlarının hazırlanması; dil və mədəniyyətin qarşılıqlı tədrisi üzrə metod və standartların müəyyənləşdirilməsi və digər əlaqəli fəaliyyət istiqamətlərinin həyata keçirilməsindən ibarətdir.

2. Dil tədrisinin səmərəliliyi dərs vəsaitlərinin keyfiyyəti, məzmun zənginliyi və elmi-metodik təminatı ilə üzvi şəkildə əlaqədardır. Hazırda Azərbaycan dilinin xarici dil kimi tədrisi üçün nəzərdə tutulmuş dərsliklərin sayı məhduddur. Geniş istifadə olunan dərsliklərdən "Azərbaycan dili" (Rəhimova, Qurbanova, Fərəcullayeva,. Həbibi, 2016), "Teach Yourself Azeri" (Khudazarov, 2009), "Azərbaycanca şifahi nitq üzrə praktikum" (Abdullayeva, 2013), "Xalq öz dili ilə yaranır" (Əliyeva, 2022) "Azərbaycan dili – Yüksək səviyyə" (Əliyeva, Hacıyeva, Vahabova, 2013), "Azərbaycan dili" (Şəmsizadə, 2014), "Salam Azərbaycan" (Əsgərov, 2020) və digərlərini göstərə bilərik. Bir neçəsini çıxmaq şərtilə mövcud dərsliklərin əksəriyyətində aydın metodoloji konsepsiya müşahidə olunmur; onlar əsasən ümumi xarakter daşıyır və hansı ölkələrin və ya dil qruplarının nümayəndələri üçün hazırlandığı dəqiq müəyyənləşdirilmir. Bu məsələyə diqqət çəkməyimizin səbəbi ondan ibarətdir ki, dərsliklərdə yer alan bəzi mövzular müəyyən xalqlar və ya ölkələr üçün həssas xarakter daşıya bilər. Məsələn, Rusiyada rus dilini öyrənən azərbaycanlı tələbə istifadə etdiyi dərslikdə Qarabağ məsələsi ilə bağlı Azərbaycanın rəsmi mövqeyinə və dövlət siyasətinə zidd məzmunla qarşılaşarsa, bu, təbii olaraq onun narazılığına səbəb ola bilər. Eyni vəziyyət digər ölkələrin nümayəndələri üçün də keçərlidir. Bu baxımdan, Azərbaycan

dilinin xarici dil kimi tədrisi üçün hazırlanan dərsliklərin müxtəlif ölkələrin və ya ən azı regionların sosial-mədəni, tarixi və siyasi xüsusiyyətləri nəzərə alınmaqla diferensiallaşdırılması məqsədəuyğundur. Belə yanaşma həm tədris prosesinin effektivliyini artırar, həm də mümkün mədəni və siyasi həssaslıqların yaranmasının qarşısını alar.

3. Digər mühüm məsələlərdən biri müxtəlif təyinatlı lüğətlərin hazırlanması və onların geniş şəkildə əlçatanlığının təmin edilməsidir. Bu qəbildən olan resurslara çoxdilli lüğətlər, şəkilli lüğətlər, terminoloji lüğətlər, xüsusi məqsədli lüğətlər, sadə və anlaşıqlı izahlı lüğətlər, frazeoloji birləşmə lüğətləri və digər oxşar vəsaitlər daxildir. Bu lüğətlər hazırlanarkən onların əsas hədəf auditoriyasının doğma dili Azərbaycan dili olmayan istifadəçilər olduğu nəzərə alınmalıdır. Buna görə də lüğətlərin tərtibində xüsusi leksikoqrafik yanaşmaların tətbiqinə, istifadəyə uyğun dizaynın hazırlanmasına və dil-mədəniyyət xüsusiyyətlərinə həssaslıqla yanaşılması vacibdir. Eyni zamanda, lüğətlərin yalnız Azərbaycan dili–ingilis dili, Azərbaycan dili–rus dili və digər geniş yayılmış dillərlə məhdudlaşmaması, həmçinin daha az yayılmış dilləri də əhatə etməsi məqsədəuyğundur. Məsələn, Sovet İttifaqı dövründən etibarən, Azərbaycanda vyetnamlı tələbələr təhsil almış və bu proses bu gün də davam etməkdədir. Lakin Azərbaycan dilinin vyetnamlı tələbələr tərəfindən daha səmərəli öyrənilməsini dəstəkləyən Azərbaycan dili–vyetnam dili istiqamətində müxtəlif təyinatlı lüğətlər, demək olar ki, mövcud deyildir. Bu isə Azərbaycan dilinin beynəlxalq tədrisi sahəsində mövcud boşluqlardan biri kimi qiymətləndirilə bilər.

4.Rəqəmsallaşma müasir dövrün əsas tələblərindən biri olmaqla yanaşı, xarici dillərin öyrənilməsi və tədrisi üçün ən səmərəli vasitə olaraq dəyərləndirilir. Azərbaycan dilinin xarici dil kimi rəqəmsal mühitdə tədrisi istiqamətində son illərdə bir sıra mühüm addımlar atılmışdır. Bu sahədə “Azərbaycan dili" platformasının istifadəyə verilməsi, eləcə də Pekin Xarici Dillər Universitetində Azərbaycan dilinin Açıq Kütləvi Onlayn Dərs (MOOC) formatında tədrisinin təşkili xüsusi qeyd olunmalıdır.

Lakin texnologiyanın sürətlə inkişaf etdiyi və rəqəmsal təhsil imkanlarının davamlı şəkildə genişləndiyi müasir şəraitdə mövcud təşəbbüslərin sayının artırılması, onların məzmun və funksional imkanlarının təkmilləşdirilməsi zəruridir. Gələcəkdə sertifikatlaşdırılmış onlayn Azərbaycan dili kurslarının təşkili, müxtəlif dil auditoriyalarına yönəlmiş MOOC proqramlarının hazırlanması, mobil tətbiqlər vasitəsilə Azərbaycan dilinin tədrisinin daha da təkmilləşdirilməsi, çoxdilli onlayn lüğətlərin və rəqəmsal dil resurslarının yaradılması mühüm istiqamətlər kimi nəzərdən keçirilməlidir.

Bununla yanaşı, qeyd olunan təşəbbüslərin səmərəli şəkildə həyata keçirilməsi məqsədilə nüfuzlu xarici universitetlər, elmi-tədqiqat institutları və dil tədrisi mərkəzləri ilə beynəlxalq əməkdaşlığın genişləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Belə əməkdaşlıq Azərbaycan dilinin beynəlxalq səviyyədə təbliğinə, onun xarici dil kimi tədrisinin keyfiyyətinin yüksəldilməsinə və rəqəmsal humanitar elmlər sahəsində mövqeyinin gücləndirilməsinə mühüm töhfə verə bilər.

5. Azərbaycan dilinin beynəlxalq səviyyədə tədrisinin xarici ölkələrdə mərkəzləşdirilmiş şəkildə təşkil olunması dilimizin institusional və akademik mövqeyinin gücləndirilməsinə, tədris prosesinin sistemli şəkildə həyata keçirilməsinə, Azərbaycan dilinin, mədəniyyətinin və ölkə reallıqlarının beynəlxalq auditoriyaya düzgün çatdırılmasına, eləcə də davamlı maliyyələşdirmə mexanizmlərinin və standartlaşdırılmış tədris proqramlarının formalaşdırılmasına mühüm töhfə verə bilər. Müasir dünyada xarici dillərin və mədəniyyətlərin beynəlxalq miqyasda təbliği və tədrisinin mərkəzləşdirilmiş şəkildə həyata keçirilməsi sahəsində uğurlu təcrübələr mövcuddur. Türkiyənin Yunus Əmrə İnstitutu, Böyük Britaniyanın Britiş Konsulu, Çinin Konfutsi İnstitutu, İspaniyanın Servantes İnstitutu, Cənubi Koreyanın Seconq İnstitutu, Almaniyanın Qote İnstitutu, Fransanın Fransız Alyansı, İtaliyanın Dante Aliqyeri Cəmiyyəti, Portuqaliyanın Kamoes İnstitutu, Rusiyanın Rus Dünyası Fondu, Yaponiyanın Yapon Fondu və Macarıstanın Balassi İnstitutu kimi qurumlar təmsil etdikləri ölkələrin dil və mədəniyyətlərinin beynəlxalq miqyasda yayılması və təbliği istiqamətində fəaliyyət göstərirlər. Bu təşkilatların bir çoxunun Azərbaycanda da uğurlu fəaliyyəti müşahidə olunur.

Azərbaycan dilinin dünya miqyasında sistemli və davamlı şəkildə tədrisinin təmin edilməsi məqsədilə müvafiq beynəlxalq institutun yaradılması və onun xarici universitetlərə inteqrasiyası dilimizin beynəlxalq nüfuzunun yüksəldilməsinə, azərbaycanşünaslıq istiqamətinin inkişafına və ölkəmizin potensialının daha da gücləndirilməsinə xidmət edə bilər. Belə bir institut vasitəsilə Azərbaycan dilinin xarici dil kimi tədrisinə dair beynəlxalq standartların və tədris proqramlarının hazırlanması, dərslik, lüğət və digər tədris vəsaitlərinin tərtibi, rəqəmsal resursların yaradılması, müəllim hazırlığı və ixtisasartırma proqramlarının təşkili, eləcə də beynəlxalq akademik əməkdaşlıq və elmi tədqiqatların koordinasiyası mümkün ola bilər.

6. Kadr hazırlığı Azərbaycan dilinin beynəlxalq səviyyədə və yüksək keyfiyyətlə tədrisinin təmin edilməsində həlledici rol oynayır. C. Kramsch, M. Byram, A. J. Liddikot kimi alimlər mədəniyyətlərarası ünsiyyət sahəsində apardıqları tədqiqatlarda təkcə xarici dilin rolunu deyil, bu sahədə kadr hazırlığını xüsusi olaraq vurğulamışlar. C. Kramsch qeyd edir ki, mədəniyyətlərarası ünsiyyət üzrə kadrların hazırlanması xarici dil tədrisinin əsas hədəfi olmalıdır (Kramsch, 1993–1998). C. Kramschın fikirləri ilə daha yaxından tanış olduqca məlum olur ki, o, xarici dili tədris edən və ya öz ana dilini xarici dil kimi tədris edən şəxsin qarşısına müəyyən meyarlar qoyur. Əgər Azərbaycan dilinin xarici dil kimi tədrisini nəzərə alsaq, o zaman bu dili tədris edən şəxs təkcə öz dil və mədəniyyətinə deyil, eləcə də xarici mədəniyyətlərə də yaxından bələd olmalı, müqayisə aparmağı və qarşı mədəniyyətin nümayəndəsi ilə ünsiyyət qurmağı bacarmalıdır.

Bundan başqa, beynəlxalq təcrübə göstərir ki, hər hansı bir dilin daşıyıcısı olmaq və ya həmin dil üzrə filoloji təhsilə malik olmaq onu xarici dil kimi tədris etmək üçün kifayət etmir. Doğma dili Azərbaycan dili olan şəxslər, eləcə də "Azərbaycan dili və ədəbiyyatı"

ixtisası üzrə təhsil almış mütəxəssislər xüsusi metodik hazırlıq keçmədikdə bu fənnin əcnəbi auditoriyaya tədrisini hər zaman səmərəli şəkildə təmin edə bilmirlər. Bunun əsas səbəbi ondan ibarətdir ki, Azərbaycan dilinin xarici dil kimi tədrisi yalnız dil biliklərinin mənimsənilməsini deyil, həmçinin tədris materiallarının hazırlanmasını, dil bacarıqlarının qiymətləndirilməsini və mədəniyyətlərarası kommunikasiya sahələrində xüsusi peşəkar səriştələrin formalaşdırılmasını tələb edir.

Bu baxımdan, Azərbaycan dilinin beynəlxalq tədrisi üzrə ixtisaslaşmış müəllim hazırlığı sisteminin yaradılması, müvafiq təhsil proqramlarının hazırlanması və bu sahədə kadr potensialının gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, xarici dil kimi ingilis dilinin tədrisi bir çox ingilisdilli ölkələrin universitetlərində müstəqil akademik ixtisas kimi formalaşmışdır. Oxşar təcrübə Çin Xalq Respublikasında da mövcuddur və bir çox ali təhsil müəssisələrində "Çin dilinin beynəlxalq tədrisi" ayrıca ixtisas fənni kimi tədris olunur. Bununla yanaşı, yalnız müvafiq ixtisas üzrə təhsil almaq kifayət etmir; əcnəbilərə ingilis və ya Çin dilini tədris edən müəllimlər peşə fəaliyyətini həyata keçirmək üçün xüsusi sertifikasiya imtahanlarından keçməlidirlər.

Bu səbəbdən Azərbaycan dilinin beynəlxalq tədrisi sahəsində kadr hazırlığı sisteminin formalaşdırılması zamanı qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi zəruri hesab edilməlidir.

Azərbaycan dilinin beynəlxalq tədrisinin uğurla həyata keçirildiyi ali təhsil müəssisələrindən biri Çinin ən nüfuzlu dillər universiteti hesab olunan Pekin Xarici Dillər Universitetidir. Azərbaycan ilə Çin arasında əlaqələrin tarixi qədim İpək Yoluna qədər uzanır. Elə həmin dövrdən etibarən iki xalq arasında ticarət və mədəni mübadilə münasibətləri formalaşmışdır. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra, 1992-ci il 2 aprel tarixində Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında diplomatik əlaqələr qurulmuşdur. Xüsusilə, Çin tərəfindən 2013-cü ildə irəli sürülən "Kəmər və Yol" təşəbbüsü iki ölkə arasındakı əməkdaşlığın daha da genişlənməsinə yeni imkanlar yaratmışdır. Azərbaycan bu təşəbbüsü dəstəkləyən ilk ölkələrdən biri olmuşdur. 2025-ci ilin aprel ayında Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində "Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalanması münasibətlərin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir. Birgə Bəyanatın 9-cu bəndində qeyd olunur: "Tərəflər müxtəlif kanallar vasitəsilə qarşılıqlı tələbə mübadiləsini davam etdirmək, Azərbaycanda Konfutsi institutlarının inkişafına dəstək vermək və təhsil müəssisələrində Azərbaycan və Çin dillərinin tədrisini təşviq etmək, habelə iki ölkənin müxtəlif tipli təhsil müəssisələri arasında müxtəlif səviyyəli tərəfdaşlıq əlaqələrinin qurulması barədə razılığa gəldilər". Göründüyü kimi, dillərin qarşılıqlı tədrisi iki ölkə arasında imzalanmış ən yüksək səviyyəli sənəddə öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, "Kəmər və Yol" təşəbbüsünün irəli sürülməsindən sonra Çində xarici dillərin tədrisi sahəsində sürətli inkişaf mərhələsi başlamışdır. Hazırda Çin Xalq Respublikasının diplomatik münasibətlər qurduğu bütün dövlətlərin rəsmi dilləri ölkənin ali təhsil müəssisələrində ixtisas səviyyəsində tədris olunur. Bu siyasətin tərkib hissəsi kimi, Çin Xalq Respublikası Təhsil Nazirliyi 2015-ci ildə Pekin Xarici Dillər Universitetində Azərbaycan dili ixtisasının yaradılması barədə mühüm qərar qəbul etmişdir. Növbəti ildə universitetdə Azərbaycan dili kafedrası təsis edilmiş, 2017-ci ilin fevral ayından etibarən Azərbaycan dili tələbələr üçün üçüncü xarici dil seçimi kimi tədris olunmağa başlanmışdır. 2018-ci ildə isə ilk dəfə olaraq Çin ümumrespublika qəbul imtahanı vasitəsilə Azərbaycan dili ixtisasına tələbə qəbulu həyata keçirilmiş və on iki Çin vətəndaşı bu ixtisasa qəbul olunmuşdur. Onlardan doqquzu 2022-ci ildə təhsilini uğurla başa vuraraq məzun olmuşdur.

Pekin Xarici Dillər Universitetində Azərbaycan dili ixtisasına qəbul hər dörd ildən bir həyata keçirilir. COVID-19 pandemiyasının yaratdığı çətinliklər səbəbindən 2022-ci il üçün nəzərdə tutulmuş qəbul prosesi bir il təxirə salınmış və növbəti qəbul 2023-cü ildə təşkil edilmişdir. Hazırda universitetin Asiya fakültəsinin nəzdində fəaliyyət göstərən Azərbaycan dili ixtisası Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan dili üzrə müstəqil və tam dördillik bakalavr proqramı təqdim edən yeganə ali təhsil proqramı kimi xüsusi əhəmiyyət daşıyır. Əcnəbilər üçün Azərbaycan dili üzrə bakalavr proqramının yaradılması uzunmüddətli və kompleks bir prosesdir. Bu proses dördillik tədris proqramının və ayrı-ayrı fənlərin kurikulumlarının hazırlanmasını, müvafiq dərslik və lüğətlərin tərtibini, ixtisaslı yerli kadrların yetişdirilməsini, beynəlxalq akademik əlaqələrin qurulmasını və inkişaf etdirilməsini, eləcə də tədris prosesinin müasir rəqəmsal texnologiyaların tələblərinə uyğunlaşdırılmasını və digər mərhələləri əhatə edir. Buna görə də Azərbaycan dilinin beynəlxalq tədrisi üzrə bakalavr proqramının formalaşdırılması sistemli planlaşdırma, elmi-metodiki təminat və davamlı institusional dəstək tələb edən strateji əhəmiyyətli bir vəzifədir.

2023–2027-ci tədris illərini əhatə edən dördillik bakalavr proqramı çərçivəsində tələbələrə ümumilikdə 33 ixtisas fənni tədris olunur. Bu fənlər məzmun və təyinatına görə iki əsas qrupa – əsas ixtisas fənləri və ixtisaslaşma istiqaməti fənlərinə bölünür. Eyni zamanda, fənlər məzmun xüsusiyyətlərinə əsasən dil fənləri, dilçilik və dil nəzəriyyəsi fənləri, eləcə də ölkəşünaslıq və mədəniyyət fənləri olmaqla üç əsas kateqoriyaya ayrılır. Bu kateqoriyalar arasında dil fənləri üstünlük təşkil edir və tədris proqramının əsasını təşkil edir.

Dil fənlərinə "Azərbaycan dilinin əsasları" (elementar, orta və yüksək səviyyələr), "Şifahi Azərbaycan dili", "Audiovizual Azərbaycan dili", "Çincə–azərbaycanca şifahi tərcümə", "Çincə–azərbaycanca yazılı tərcümə", "Azərbaycan dilində yazı qaydaları", "Azərbaycan dilində oxu", "Qəzet materialları əsasında Azərbaycan dili" və "Ədəbi tərcümə" kimi fənlər daxildir. Dilçilik və dil nəzəriyyəsi istiqamətinə aid fənlər sırasında "Azərbaycan dilçiliyi" və "Azərbaycan dilinin tarixi" xüsusi yer tutur. Ölkəşünaslıq və mədəniyyət istiqamətli fənlərə isə "Azərbaycanşünaslıq", "Azərbaycan tarixi", "Azərbaycan

cəmiyyəti və mədəniyyəti", "Azərbaycan filmləri", "Azərbaycan dilində Çin mədəniyyəti" və digər əlaqəli fənlər daxildir.

Tədris proqramında bəzi fənlər bir, iki və ya üç semestr ərzində ardıcıl şəkildə tədris olunur ki, bu da tələbələrin müvafiq bilik və bacarıqları mərhələli şəkildə mənimsəməsinə imkan yaradır. Proqramın aktuallığını və müasir tələblərə uyğunluğunu təmin etmək məqsədilə tədris planı və kurikulumlar hər beş ildən bir yenidən nəzərdən keçirilərək yenilənir. Qeyd etmək lazımdır ki, tələbələrə üçüncü kursda Azərbaycanda bir və ya iki semestr müddətində təkmilləşdirmə kurslarında iştirak imkanı təklif olunur. Bu proqram onların real dil və mədəniyyət mühitində formalaşması və praktiki bacarıqlarının inkişafı baxımından vacib rol oynayır.

Dərslik və lüğətlərin hazırlanması Azərbaycan dili ixtisasının inkişafının əsasını təşkil edir. Qeyd etmək lazımdır ki, tərtib olunan bütün dərsliklər çinli tələbələrin Azərbaycan dilini öyrənməsi məqsədinə yönəldilmişdir. Buna görə də həmin dərsliklərin əsas məzmununu Azərbaycan mədəniyyəti təşkil etsə də, onlarda Azərbaycan–Çin münasibətlərinə də xüsusi yer ayrılmışdır. Hazırda istifadəyə verilmiş dərslik və lüğətlər bunlardır: "Azərbaycan dilinin əsasları (1-ci və 2-ci cild)"[1], "Şifahi Azərbaycan dili"[2], "Çin mədəniyyəti Azərbaycan dilində"[3], "Mənim Çin dilində şəkilli lüğətim"[4], "Azərbaycanca-ingiliscə-Çincə şəkilli lüğət"[5], "800 heroqlif-Fundamental Çin dili lüğəti"[6], "Mənim Çin dilində kiçik şəkilli lüğətim (uşaqlar üçün)"[7] və digərlərini göstərmək olar. Hazırda digər müvafiq fənlərin dərslikləri də çapa hazırlanır.

Qloballaşma və rəqəmsallaşma proseslərinin sürətlə inkişaf etdiyi müasir dövrdə Azərbaycan dilinin xarici auditoriyaya tədrisində rəqəmsal texnologiyaların tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Rəqəmsal platformalar, onlayn tədris mühitləri, mobil tətbiqlər və multimedia resursları dil öyrənmə prosesini daha əlçatan, çevik və interaktiv edir. Bu texnoloji vasitələr coğrafi məhdudiyyətləri aradan qaldıraraq müxtəlif regionlarda yaşayan öyrənənlər üçün dil biliklərinin əldə olunmasını mümkünləşdirir. Bu baxımdan Pekin Xarici Dillər Universiteti mühüm bir yeniliyə imza atmışdır. Çəkilişləri bir ildən artıq davam edən Azərbaycan dili üzrə Açıq Kütləvi Onlayn Dərslər (MOOC) 2025-ci ilin may ayından etibarən PXDU-nun xarici dillərin onlayn tədrisi platformasında istifadəyə verilmişdir. Bununla da Çində Azərbaycan dilinin virtual tədrisi praktik şəkildə reallaşdırılmışdır. Ötən müddət ərzində Azərbaycan dili üzrə MOOC kursları hər biri üç ay davam edən dörd sessiya şəklində Çin ictimaiyyətinin istifadəsinə təqdim olunmuşdur. Bu sessiyalar çərçivəsində

[1] Aqşin Əliyev, Xarici Dillərin Tədrisi və Tədqiqi Nəşriyyatı, 2016.
[2] Aqşin Əliyev, Tang Yuxuan, Wang Siyuan, Xarici Dillərin Tədrisi və Tədqiqi Nəşriyyatı, 2026.
[3] Aqşin Əliyev, Xarici Dillərin Tədrisi və Tədqiqi Nəşriyyatı, 2021.
[4] Aqşin Əliyev, Kommersiya nəşriyyatı, 2016.
[5] Aqşin Əliyev, Şanxay Xarici Dillərin Tədrisi Nəşriyyatı, 2018.
[6] Aqşin Əliyev, Xarici Dillərin Tədrisi və Tədqiqi Nəşriyyatı, 2017.
[7] Aqşin Əliyev, Kommersiya Nəşriyyatı, 2016.

təxminən 600 nəfər istifadəçi kurslarda qeydiyyatdan keçmiş və hazırda da Azərbaycan dilinin öyrənilməsi prosesini davam etdirir. Layihə öz mahiyyətinə görə davamlı və uzunmüddətli xarakter daşıyır.

Pekin Xarici Dillər Universitetinin Çin Xarici Dillərin Tədrisi üzrə Milli Tədqiqat Mərkəzinin nəzdində dil korpusu tədqiqat qrupu tərəfindən dünyanın 50 dilinin korpusu yaradılmışdır. Hazırda mərkəz Azərbaycan dili kafedrası ilə bərabər Azərbaycan dilinin korpusunun yaradılması istiqamətində tədqiqat işlərini sistemli şəkildə davam etdirir. Sözügedən korpus təkcə Çin daxilində deyil, eyni zamanda, azərbaycanlı tədqiqatçılar üçün də dilçilik araşdırmalarında etibarlı elmi baza funksiyasını yerinə yetirəcəkdir. Qeyd etmək lazımdır ki, Pekin Xarici Dillər Universiteti tərəfindən təqdim olunan xarici dil korpusları Çində ən geniş xarici dil korpusları toplusuna malik olmaqla yanaşı, beynəlxalq elmi ictimaiyyət tərəfindən də fəal şəkildə istifadə olunan aparıcı tədqiqat platformalarından biridir.

Azərbaycan dili ixtisası və Azərbaycan dili kafedrası yaradıldıqdan sonra Azərbaycanın müvafiq ali təhsil, elm və mədəniyyət müəssisələri ilə əməkdaşlıq xüsusi əhəmiyyət kəsb etmişdir. Son on il ərzində Pekin Xarici Dillər Universiteti Heydər Əliyev Fondu, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Dövlət Universiteti, Xəzər Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Bakı Slavyan Universiteti ilə əməkdaşlığa dair anlaşma memorandumları imzalamış, uğurlu tələbə və tədqiqatçı mübadilələri həyata keçirmiş, elmi və mədəni tədbirlər təşkil etmiş, həmçinin yüksək səviyyəli qarşılıqlı səfərlər nəticəsində bir sıra əməkdaşlıq istiqamətlərinin əsası qoyulmuşdur.

Xarici dilin tədrisi yalnız dil bacarıqlarının mənimsənilməsini deyil, eyni zamanda ölkənin tarixi, mədəniyyəti və müvafiq region haqqında biliklərin formalaşdırılmasını da əhatə edir. Bu məqsədlə PXDU-nun Azərbaycan dili kafedrası müxtəlif elmi və mədəni tədbirlərin təşkili istiqamətində fəaliyyətini davam etdirir. 2019-cu ildə Heydər Əliyev Fondunun dəstəyi ilə dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş "Azərbaycan Dili və Ədəbiyyatı Sərgisi", 2021-ci ildə "Nizami İli" münasibətilə "Nizami irsi" layihəsi, 2024-cü ildə "Birinci Çin Azərbaycanşünaslıq Beynəlxalq Elmi Konfransı", eləcə də 2025-ci ildə "Birinci Çin–Azərbaycan Gənclər Forumu: Yüksəksəviyyəli Tərcümə və Mədəniyyətlərarası Ünsiyyət Seminarı" təşkil edilmişdir. Bu tədbirlər Çindən çoxsaylı alim və gənc tədqiqatçıları bir araya gətirərək Azərbaycan dilinə və mədəniyyətinə maraq göstərən, bu sahəni araşdıran mütəxəssislərin elmi mübadiləsi və əməkdaşlığı üçün mühüm platforma yaratmışdır.

Azərbaycan və Çin arasında elm və təhsil sahələrində əməkdaşlığın inkişaf dinamikasını nəzərə alaraq, Azərbaycan dilinin tədrisinin tədqiqat istiqaməti olaraq daha da gücləndirilməsi, onun yalnız öyrədilən dil statusundan çıxaraq elmi-tədqiqat predmeti səviyyəsinə yüksəldilməsi, institusional mövqeyinin möhkəmləndirilməsi, eləcə də Azərbaycan dili ixtisasını bitirən çinli məzunların akademik təhsillərini davam etdirmələri

üçün əlverişli şəraitin yaradılması məqsədilə 2026-cı ildən etibarən Pekin Xarici Dillər Universitetində Azərbaycan dili ixtisası üzrə magistratura səviyyəsinə qəbul elan edilmişdir.

Azərbaycan dili kafedrasının fəaliyyətə başlamasından etibarən yerli Azərbaycan dili müəllimlərinin hazırlanması əsas prioritet vəzifələrdən biri kimi müəyyən edilmişdir. Qeyd edək ki, PXDU-da Azərbaycan dili ixtisası üzrə ölkə daxilində müvafiq kadr bazası mövcud deyil. Buna görə də, Azərbaycan dili ixtisasına ilk qəbul zamanı tələbələr arasından gələcək peşəkar istiqamətləri nəzərə alınaraq iki nəfər seçilmiş, onların Azərbaycan dili müəllimi kimi hazırlanması təmin edilmiş və hazırda həmin şəxslər kafedrada müəllim kimi fəaliyyət göstərirlər.

Nəticə

Araşdırmanın nəticələri aşağıdakı qənaətləri irəli sürməyə əsas verir:

1. Azərbaycan dilinin beynəlxalq tədrisinin müstəqil elmi-tədqiqat istiqaməti kimi formalaşdırılması və nəzəri-metodoloji əsaslarının sistemli şəkildə işlənməsi zəruridir.
2. Əcnəbilərə, eləcə də etnik mənsubiyyətinə görə azərbaycanlı olub Azərbaycan dilini bilməyən şəxslərə dilin tədrisi üçün xüsusi metod və yanaşmaların hazırlanması, onların elmi əsaslarla tədqiq olunaraq tədris prosesində tətbiqi məqsədəuyğundur.
3. Azərbaycan dilinin beynəlxalq müstəvidə institusional və akademik statusunun yüksəldilməsi Azərbaycanın beynəlxalq nüfuzunun və yumşaq güc potensialının mühüm tərkib hissəsi kimi qiymətləndirilməlidir.
4. Tədris prosesində dərslik və lüğətlərin hazırlanması, onların elmi-metodiki prinsiplər əsasında tərtibi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, dərsliklərin hazırlanması prosesində ayrı-ayrı ölkə və regionların xüsusiyyətlərinin nəzərə alınması məqsədəuyğundur.
5. Azərbaycan dilinin beynəlxalq tədrisinin rəqəmsallaşmanın tələblərinə uyğunlaşdırılması məqsədilə müxtəlif dillərdə MOOC kurslarının, distant və onlayn Azərbaycan dili platformalarının yaradılması və sertifikatlaşdırılması, eləcə də Udemy və Coursera kimi beynəlxalq təhsil platformalarında Azərbaycan dili kurslarının təşkili zəruri hesab olunur.
6. Beynəlxalq təcrübəyə əsaslanaraq Azərbaycan dilinin müxtəlif ölkələrin ali təhsil müəssisələrində mərkəzləşdirilmiş və sistemli şəkildə tədrisinin təşkili yalnız dilin deyil, həm də Azərbaycan mədəniyyətinin, tarixinin və ölkə reallıqlarının dünya ictimaiyyətinə çatdırılmasında həlledici əhəmiyyət kəsb edə bilər.
7. Müvafiq ali təhsil müəssisələrində "Azərbaycan dilinin beynəlxalq tədrisi" istiqaməti üzrə ixtisasların yaradılmasına, bu sahədə yalnız bakalavriat deyil, həmçinin magistratura və doktorantura səviyyələrində təhsil proqramlarının formalaşdırılmasına xüsusi diqqət yetirilməsi vacibdir.

8. Pekin Xarici Dillər Universitetinin təcrübəsi əsasında Azərbaycan dilinin xarici ölkələrin universitetlərində müstəqil ixtisas kimi təşkili və inkişafı istiqamətində beynəlxalq əməkdaşlığın daha da gücləndirilməsi məqsədəuyğundur.

Beləliklə, Azərbaycan dilinin beynəlxalq tədrisinin institusional, metodoloji və rəqəmsal əsaslar üzərində inkişaf etdirilməsi dilimizin qlobal akademik məkanda mövqeyinin möhkəmləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır.

Ədəbiyyat

1. Abdullayeva, F. (2013). *Azərbaycanca şifahi nitq üzrə praktikum* (Yüksək səviyyə:əcnəblər üçün dərs vəsaiti). "Azərbaycan Dillər Universiteti".
2. Balıyev, H., Balıyev A. (2014). *Azərbaycan dilinin tədrisi metodikası*. "Qismət".
3. Byram, M. (1997). *Teaching and Assessing Intercultural Communicative Competence.* "Clevedon, UK: Multilingual Matters".
4. Dövlət İmtahan Mərkəzi. (2024). *Azərbaycan dili bacarıqları üzrə səviyyələrə dair tələblər*. "Abituriyent".
5. Əliyeva, S., Hacıyeva, K., Vahabova, İ. (2013). *Xarici tələbələr üçün Azərbaycan dili* (yüksək səviyyə). "Mütərcim".
6. Kazımov, Q. (2023). *Azərbaycan dilinin qrammatikası*. "Elm və təhsil".
7. Məmmədova, A. (2011). *Azərbaycan dilinin tədrisi tarixi*. "Bakı Slavyan Universiteti".
8. Cook, V. (2021). *Linguistics and Second Language Acquisition*. "Foreign Language Teaching and Research Press, Wiley".
9. Ellis, R. (2006). *The Study of Second Language Acquisition*. "Shanghai Foreign Language Education Press".
10. Kramsch, C. (1993). *Context and Culture in Language Teaching.* "Oxford: Oxford University Press".
11. Kramsch, C. (1998). *Language and Culture.* "Oxford: Oxford University Press".
12. Scollon, R. (2022). *Intercultural Communication: A Discourse Approach*. "Foreign Language Teaching and Research Press, Wiley".
13. Wen Xiaochong, Nyan-Ping Bi. (2015). *Curriculum Design and Instruction*. "Beijing Language and Culture University Press".
14. 吴旭东（2013).*《第二语言习得研究：方法与实践》*. 上海外语教育出版社.